# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 25

**Bakı şəhəri** "3" iyul 2017 il

**"Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun yeni layihəsini hazırlanması məqsədi ilə İşçi Qrupun yaradılması haqqında**

"Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanının 4.2-ci bəndinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 aprel tarixli 243s nömrəli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2017-ci il 14 aprel tarixli 12 nömrəli Əmrinin 4.1-ci bəndini və həmin bənddə qeyd olunan qurumların namizədləri ilə bağlı təklifləri (Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin 2017-ci il 2 may tarixli DA/02-07-224 nömrəli məktubun, Azərbaycan Respublikasının Milli Məclisinin Aparatının 2017-ci il 30 may tarixli 04/1-106 nömrəli məktubu, "Azərenerji" ASC-nin 2017-ci il 3 may tarixli 03/26/803 nömrəli məktubu, "Azərişıq" ASC-nin 2017-ci il 1 may tarixli NA-17/0119 nömrəli məktubu və "Azəristiliktəchizat" ASC-nin 2017-ci il 19 iyun tarixli 02/106-01nömrəli məktubu) nəzərə alaraq "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun yeni layihəsini hazırlanması məqsədi ilə aşağıdakı tərkibdə İşçi Qrup yaradılsın:

**İşçi Qrupun sədri**

İbrahim Ağayev - Azərbaycan Respublikasının Energetika Nazirliyinin Hüquqi münasibətlər şöbəsinin müdiri

**İşçi Qrupun üzvləri**

Mürvət Babayev - Azərbaycan Respublikasının Energetika Nazirliyinin Hüquqi münasibətlər şöbəsinin müdir müavini

| | |
|---|---|
| Asəf Rzayev | - Azərbaycan Respublikasının Energetika Nazirliyinin Elektroenergetika şöbəsinin müdir müavini |
| Elxan Kərimov | - Azərbaycan Respublikasının Energetika Nazirliyinin Hüquqi münasibətlər şöbəsinin Hüquqi ekspertiza sektorunun müdiri |
| Kamilə Rəhimova | - Azərbaycan Respublikasının Energetika Nazirliyinin Elektroenergetika şöbəsinin böyük məsləhətçisi |
| Rauf Əhmədov | - Dövlət Enerji Nəzarəti İdarəsinin rəis müavini |
| Rauf İsmayılov | - Dövlət Enerji Nəzarəti İdarəsinin Bakı regional bölməsinin baş məsləhətçi-müfəttişi |
| Hacı Cəlilzadə | - Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin Hüquq və beynəlxalq əlaqələr şöbəsinin böyük məsləhətçisi |
| Tahir Cəfərov | - Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin tabeliyindəki "Azalternativeneji" MMC-nin baş energetiki |
| Vasif Əmiraslanov | - Azərbaycan Respublikasının Milli Məclisinin Aparatının İqtisadi qanunvericilik sektorunun müdiri |
| Bəhruz Sadıqlı | - "Azərenerji" ASC-nin Texniki İstehsalat şöbəsinin rəis müavini |
| Şirin Quliyev | - "Azərenerji" ASC-nin İstilik avadanlıqlarının istismarı və təmiri xidmətinin aparıcı mühəndisi |
| Vüsal Qənbərov | - "Azərişıq" ASC-nin Texniki Departament direktorunun I müavini |
| Rza Məmmədov | - "Azərişıq" ASC-nin Hüquq İdarəsinin rəisi |
| Rəşad Abdullayev | - "Azəristiliktəchizat" ASC-nin strukturuna daxil olan "İstilik Sistemləri və Qurğuları Layihə Smeta Elmi Tədqiqat Mərkəzi" MMC-nin baş mühəndisi |
| Rəna Əlizadə | - "Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu" MMC-nin Patent, ixtisasartırma və normativ sənədlər şöbəsinin rəisi |

2. Elektron idarəetmə və informasiya şöbəsi (C.İbrahimov) bu əmrin Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

3. Ümumi şöbə (E.Rzayeva) bu əmrin surətini Nazirliyin aparatının aidiyyəti şöbələrinə, Dövlət Enerji Nəzarəti İdarəsinə, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinə, Azərbaycan Respublikası Milli Məclisinə, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə çatdırılmasını təmin etsin.

4. Bu əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Nazir müavini Gülməmməd Cavadov